

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

5 mart 2020-ci il
Cümə axşamı

№ 9 (3474)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# PREZİDENT İLHAM ƏLİYEV DAXİLİ QOŞUNLARIN "N" SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB





**Ağstafa rayonuna səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 4-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.**

**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.**

**Dövlətimizin başçısı hərbi hissədə yaradılan şəraitlə tanış olub.**

*Ətraflı gələn sayımızda*

## DÖVLƏT BAŞÇISI GORANBOY, ŞƏMKİR, QAZAX, TOVUZ VƏ AĞSTAFA RAYONLARINDA OLUB

Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də Goranboy rayonuna səfərə gedib.

Dövlətimizin başçısı Goranboy şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevə rayonda görülən işlər barədə məlumat verib.

Ölkəmizin rəhbəri Goranboy rayonuna səfəri çərçivəsində Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Goranboy filialının açılışlarında iştirak edib.

Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında da iştirak edən Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsib, yaradılan şəraitlə tanış olub, xəstəxananın kollektivi ilə görüşüb.

Həmin gün Şəmkir rayonuna gələn dövlətimizin başçısı Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun, "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksinin açılış mərasimində iştirak edib, nitq söyləyib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazax rayonuna gəlib.

Dövlətimizin başçısı Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun, əhəng zavodunun yenidənqurmadan sonra açılışlarında iştirak edib, Qazax Rayon Mərkəzi Xəstəxanasının, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qazax filialının fəaliyyəti ilə tanış olub.

Prezident İlham Əliyev martın 4-də Ağstafa rayonuna gəlib.

Dövlət başçımız "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olub, Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun, "Ağstafa" elektrik yarımstansiyasının, Aqrar Sənaye Kompleksinin açılışlarında iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Tovuz rayonunda da olub.

Dövlətimizin başçısı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz filialının fəaliyyəti ilə tanış olub, Aşıq Sənəti Dövlət Muzeyinin, Tarix-Diyarşünaslıq və Dövlət Rəmzləri muzeylərinin, "ASAN Həyat" kompleksinin açılışlarında, Qovlar–Əyyublu–Alakol–İbrahimhacılı–Yanıqlı–Ağacqala–Qoçdərə–Çobansığnaq–Yoğunbulaq–Sarıtala avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

## AZƏRBAYCANIN DAHA BİR UĞURU

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında iştirak edib.

Qeyd edək ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına hər dəfə Azərbaycan ev sahibliyi edir, bu isə ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən mühüm amillərdən biridir. Dörd seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət olan layihə çərçivəsində 2018-ci ilin mayında Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub. Həmin ilin iyununda isə TANAP qaz boru kəməri istifadəyə verilib, ötən il isə TANAP Avropa sərhədinə çatdırılıb.

Yeddi ölkənin - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliyanın iştirak etdiyi, uzunluğu 3500 kilometr, ümumi dəyəri isə təxminən 40 milyard dollar olan Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində strateji amildir.

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 27-də Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Fevralın 27-də Azərbaycan Prezidenti İlham Əliyev "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.***

***Fevralın 27-də ölkəmizin rəhbəri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bir sıra hərbi qulluqçularının 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 27-də İçərişəhərin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin 20 illiyinin qeyd olunması haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri fevralın 28-də Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.***

***Fevralın 28-də Azərbaycan Prezidenti İlham Əliyev türk əsgərlərinin şəhid olması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana başsağlığı teleqramı göndərib.***

***Martın 2-də dövlətimizin başçısı Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskinin etimadnaməsini qəbul edib.***

***Azərbaycan Prezidenti İlham Əliyev martın 3-də milli bayram münasibətilə Bolqarıstan Respublikasının Prezidenti zati-aliləri cənab Rumen Radevə təbrik məktubu göndərib.***

***Dövlətimizin başçısı martın 3-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Ölkəmizin rəhbəri martın 3-də Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

## 8 MART - BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR ORQANLARINDA XİDMƏT EDƏN, TƏQAÜDDƏ OLAN QADINLARA VƏ ŞƏHİD OLMUŞ ƏMƏKDAŞLARIN QADIN AİLƏ ÜZVLƏRİNƏ

***Əziz qadınlar, hörmətli həmkarlarımız!***

***8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm!***

***Özünün saflığı, işgüzarlığı və sədaqəti ilə seçilən, hər zaman cəmiyyətin mənəvi dayağı olan Azərbaycan qadınının zəngin mədəni-mənəvi irsimizin qorunub saxlanılmasında müstəsna xidmətləri vardır.***

***Ölkəmizin ictimai həyatında, dövlət idarəçiliyində mühüm rol oynayan və öz potensialını davamlı inkişafda olan müstəqil Azərbaycanın qüdrətlənməsinə, xalqın rifahına sərf edən qadınlar quruculuq prosesinin fəal iştirakçısıdır. Azərbaycan qadınının mədəniyyətlərarası dialoqun formalaşdırılmasında önəmli xidmətləri və səyləri respublikamızda, eləcə də onun hüdudlarından kənarda yüksək qiymətləndirilir.***

***Daxili işlər orqanlarında çalışan qadınların da öz məsul vəzifələrini layiqincə yerinə yetirmələrini, əldə olunan uğurlarda böyük əməyini, əzmkar və səmərəli fəaliyyəti ilə ictimai asayişin və daxili təhlükəsizliyin qorunması işinə hər zaman layiqli töhfələr verdiyini xüsusi qeyd edirəm.***

***Bu əlamətdar gündə hamınıza möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik, xidmətdə uğurlar arzulayıram!***

***Bayramınız mübarək olsun!***

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının Daxili İşlər naziri,*
*general-polkovnik*

# QANUNUN TƏLƏBLƏRİNİN İCRASI DİQQƏT MƏRKƏZİNDƏDİR

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılır, tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir.**

Respublikanın şəhər, rayon polis orqanları tərəfindən aidiyyatı təşkilatlarla birgə qanunla tütün çəkilməsinə icazə verilməyən yerlərdə - təhsil və tərbiyə, səhiyyə və tibbi-reabilitasiya müəssisələrində, idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi binalarda və obyektlərdə, habelə onların ərazilərində, uşaq meydançalarında, yerüstü qapalı və yeraltı piyada keçidlərində, Metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda, hava və dəniz (çay) limanlarının inzibati binalarında, dəmir yolu vağzallarında, avtovağzallarda, avtobusların dayanacaq məntəqələrində, liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerlərində, taksafonlarda, yanacaqdoldurma məntəqələrində monitorinqlər keçirilib, fiziki və hüquqi şəxslər, fərdi sahibkarlar, eləcə də əhali arasında geniş izahat işləri aparılıb.

Maarifləndirmə tədbirləri çərçivəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" qanunun 11-ci maddəsinin 11.4-cü bəndinə əsasən, müvafiq qanunvericiliyin tələblərinin pozulması ilə bağlı Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng Mərkəzi Sisteminə və www.mia.gov.az elektron saytına müraciət etmək hüququnun olması barədə vətəndaşlara, fiziki və hüquqi şəxslərə, fərdi sahibkarlara məlumat verilib.

Ümumilikdə, 2018-2019-cu illər ərzində respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanunu ilə qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 3034, tütün məmulatlarını yetkinlik yaşına çatmayanlara satdıqlarına görə 453 şəxs İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati məsuliyyətə cəlb olunub. Onlara tətbiq edilmiş cərimələr 137.290 manat təşkil etmişdir.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*Natiq Cavadov,*
*polis mayoru*

# DAXİLİ İŞLƏR NAZİRİ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 28-də Şirvan şəhərində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Daxili İşlər naziri əvvəlcə şəhərin mərkəzində, ulu öndərin adını daşıyan parkda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Daha sonra Şəhər Polis Şöbəsində Şirvan da daxil olmaqla respublikanın Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı şəhər və rayonlarından müraciət edən 25 nəfər ilə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün Nazirliyin aidiyyatı baş idarə və idarə rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Tədbirdə iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

# Bahar çiçəkləri kimi...


Elvira Hüseynova


Məlahət Məhərrəmova


İlhamə Vəliyeva


İlahə Kərimzadə

**Təbiətin dil açıb danışdığı bahar fəslində günəşin ilıq nəfəsini canına çəkən bütün yaradılmışlar bahar ətirli olur. 8 mart "Beynəlxalq Qadınlar Günü"nün mart ayına təsadüf etməsi bahar çiçəkləri kimi həyatımızı bəzəyən xanımlarımızı sevindirmək üçün də bir fürsətdir.**

Qadınlara həmişə yüksək diqqət, qayğı göstərilib və bu gün Azərbaycan qadını ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə nailiyyətlərə imza atan Azərbaycan qadını taleyüklü milli məsələlərin həllinə də sanballı töhfələr verib və verir.

Bütün sahələrdə olduğu kimi DİN rəhbərliyi tərəfindən də gender siyasəti sahəsində məqsədyönlü və sistemli tədbirlərin həyata keçirilməsi, yaradılmış şərait DİO-da xidmət edən qadınlara öz bilik və bacarıqlarını gerçəkləşdirməyə imkan verir. Bu gün sıralarımızda yüzlərlə xanım əməkdaş var ki, kişi həmkarları ilə çiyin-çiyinə məsuliyyətli və şərəfli peşələrinin çətinliyinin öhdəsindən sevə-sevə gəlirlər. Sevinclərinə sevinc qatmaq üçün bayram ərəfəsində onlardan bir neçəsi ilə görüşdük.

**DİN-in 1 saylı Poliklinikasının rəisi, tibb xidməti mayoru Elvira Hüseynova** şəxsi keyfiyyətləri, peşəkarlığı ilə kollektivin və sağlamlığına qovuşmaq üçün onlara müraciət edənlərin sevgisini, rəğbətini qazanıb. Polis ailəsində dünyaya göz açıb, dəmir nizam-intizam görüb. Asayiş keşikçilərinin sağlam və güclü olmasının cəmiyyət üçün nə qədər önəmli və vacib olduğunu bilir, qiymətləndirir. Ağ xalatlı xilaskarımız gözəl ana, qayğıkeş ailə başçısıdır.

**Polis polkovnik-leytenantı Məlahət Məhərrəmova Bakı şəhər Baş Polis İdarəsinin Kadrlar İdarəsinin Xidmətkeçmə Bölməsinin rəisidir**. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirdikdən sonra taleyini daxili işlər orqanlarına bağlayıb. "İşin asanı yoxdur" devizi onu çevrəsindəkilərdən fərqləndirib və "əziyyətsiz rahatlıq olmur" təcrübəsini bu gün sıralarımızda olan gənclərlə bölüşür, onlara, sözün əsl mənasında, müəllimlik edir. Ailə qayğılarının və xidmət məsuliyyətin ağırlığının bir qadın çiynində daşınması özü belə möcüzədir.

Bu bayram sevincindən ona da pay düşür. 1999-cu ildən daxili işlər orqanlarında xidmət edən **polis polkovnik-leytenantı İlhamə Vəliyeva DİN-in Tibb İdarəsində Katibliyin rəisidir**. Sıralarımıza qatılmağı təsadüfi deyil. Ailələrində həmişə polisə hörmət və rəğbət görüb, eşidib. Bəlkə elə buna görədir ki, bacısı polis polkovnik-leytenantı Ülviyyə Vəliyeva da bu peşəni seçib. O, DİN-in Şəxsi Heyətlə İş İdarəsində Katibliyin rəisidir. Xidmətin ağırlığı, zəhmət, eyni zamanda, ev-ailə qayğılarına rəğmən, onlar etimadı doğrultmağa çalışırlar.

İşinin peşəkarı olan, ona bəslənən ümidi layiqincə doğruldan xanım əməkdaşlarımızdan biri də **polis polkovnik-leytenantı İlahə Kərimzadədir**. İncə və zərif olduğu qədər də güclü olan həmkarımız DİN-in Növbətçi Hissələri İdarəetmə Xidmətində Katibliyin rəisidir. Deyir ki, qarşısına çıxan çətinlikləri dəf etmək üçün hər zaman kişi həmkarlarının köməyini və dəstəyini görüb.

"Qadın gülərsə bəşəriyyət güləcək" deyən Cavidimizin fikrinə söykənib, dünyanı azad, qansız-qadasız görmək arzusunda olanların ürəyində bir istəyi var: "Dünyanı qadınlara verək, qiyamətə qədər"...

Və bayramlarını, ən əziz günlərini iş başında, xidmətdə qeyd edən xanımlarımıza cansağlığı, xoşbəxtlik arzulayır, bayramınız mübarək deyirik.

*Aytəkin Nəcəfova,*
*Ruslan Vəliyev*

# SABİTLİK OLAN YERDƏ

**Sabitlik hər bir dövlətin sərvətidir. Bu gün ölkəmizdə asayiş daha etibarlı qorunur, cinayətkarlıqla mübarizə yüksək səviyyədə təmin olunur. Məhz buna görə də bəzi qüvvələrin məqsədli müxtəlif yollara əl atmaqla sabitliyi pozmaqdır. Azərbaycana həm daxildən, həm də xaricdən təzyiq edənlərin diqtəsi ilə bu gününü düşünüb, sabahını qurmur.**

Əldə etdiyimiz bütün iqtisadi, siyasi və diplomatik uğurların bünövrəsində sabitlik durur. Bizi cənubi Qafqazın liderinə çevirən, inkişafımızı şərtləndirən əsas amillərdən biri də məhz budur. Ölkəmizdə ictimai sabitlik, əhalinin hüquq mühafizə orqanlarına olan etimadı, asayiş keşikçilərinin vətəndaşları bütün təhlükələrdən qoruması sabitlik adasının təhlükəsizliyindən xəbər verir.

Bunlar elə də asan başa gəlmir. Çünki bu gün ədalətə ədalətsizliklə bərpa etmək istəyənlərin mövqeyi göz qabağındadır. Sadəcə xalq artıq yalan vədlərə, qarayaxmalara, böhtana inanmır, öz şəxsi mənafelərini xalqın mənafelərindən üstün tutanların iftiralarının ayaq tutub yeriməsinə imkan vermir.

Hüquq mühafizə, o cümlədən daxili işlər orqanları əməkdaşlarının cinayətkarlığa, pozuculuğa qarşı qətiyyətli mübarizəsi, profilaktiki tədbirlər səngimir, polis-vətəndaş münasibətləri daha işgüzar, səmərəli xarakterdə formalaşır.

Ölkəmizdə vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işləri beynəlxalq təşkilatlar, dünya dövlətləri də yüksək dəyərləndirir. Buna görə də Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə, forumlara, konfranslara evsahibliyi etməklə, dünyanın ən tolerant məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi tanınır.

*İnformasiya bölməsi*

# SABİRDƏN ƏVVƏL DEYİLƏNLƏR...

***Dutubdu ərseyi-afaqı cümlə hikməti-elm,***
***Çıxır səmayə xəlayiq bu gün fərasətdən...***

Yəqin ki, 19-cu əsrin ortalarında yazılmış bu şeirdəki ərəb-fars sözləri qulağınıza xoş gəlməsə də millətinin maariflənməsi üçün yanğısını şeirə çevirən, digər xalqların maarifləndiyini görüb, üzünü dindaşlarına, soydaşlarına tutaraq haray çəkən müəllifin halını təsəvvür etdiniz. Cəhalətin girdabında can çəkişənlərə haqqın yolunu, həqiqətin burunlarının ucunda olduğunu göstərən şair vaxtilə aşağıdakı misralarla ifadə etmişdi:

***Dolubdu millətimiz zülməti-cəhalətdən,***
***Oyanmayır, nədi bais bu xabi-qəflətdən?***

Bu şeirin müəllifi haqqında vikipediyada bircə cümlə verilib. O da belədir: "Züi Mirzə Mahmud - XIX əsr Şamaxı şairlərindən biri, "Beyt üs-Səfa" şeir məclisinin üzvü".

Şairin doğum və ölüm tarixi də düzgün göstərilməyib (1843-1913). Mərhum filologiya elmləri doktoru Əhməd Cəfərzadənin Zui haqqında yazdığı məqaləni oxuduqdan sonra bir çox mətləblərə aydınlıq gətirməyi özümüzə borc bildik.

Əhməd Cəfərzadə yazır: "Mirzə Mahmud Zui 1815-ci ildə Şamaxı şəhərində dünyaya göz açmışdır. Xəttatlıqla məşğul olmuş, ömrünün 50 ilini müəllimliyə həsr etmişdir. Zui təxminən 1842-43-cü illərdə Şamaxının İmamlı məhəlləsində məktəb açmış, 40 ilə yaxın burada dərs demişdir. Onun məktəbində ədəbiyyat, tarix, riyaziyyat, nəğmə, xəttatlıq və ilahiyyət fənləri tədris olunmuş, ərəb-fars, sonradan rus dili də öyrənilmişdir. XIX əsrin axırlarında Zui Sabirabad rayonunun Cavad kəndinə köçmüş və 12 il burada müəllimlik etmişdir. 1910-cu ildə 95 yaşında vəfat etmiş və kəndin qədim qəbristanlığında dəfn edilmişdir"...

Yeri gəlmişkən, 19-cu əsrin bu maarifpərvər ziyalısı, istedadlı şairi haqqında həm də onun nəticəsi, təqaüddə olan polis polkovniki, Əməkdar jurnalist Cavid Xaspoladovdan maraqlı faktlar əldə etdik.

Zui Seyid Əzim Şirvani, Molla Ağa Bixud, Məhəmməd Səfa, Qafar Rəğib və başqa şairlərlə dostluq etmişdir. Haqqında ilk məlumat və onun 13 şeiri Seyid Əzim Şirvanının təzkirəsində verilmişdir. "Qori Müəllimlər Seminariyası"nın yaradıcısı Firudun bəy Köçərli XX əsrin əvvəllərində şairlə şəxsən görüşmüş və onun bütün əlyazmalarını aparmışdır. Hətta Zuinin öz məktəbi üçün tərtib etdiyi dərsliyin Firudun bəy Köçərli tərəfindən aparıldığını da ədibin yaxın qohumları bildiriblər.

***Zui qızların məktəbə getməsinin tərəfdarı idi. Düz, 178 il bundan əvvəl Şamaxıda açdığı məktəbdə qız uşaqlarının təhsilə cəlb edilməsi üçün bütün imkanlarını səfərbər etmişdi. Və əbəs yerə yazmırdı:***

***Əgər qızın oxusa, yoxdu zərrə nöqsani...***

"Dəyişən zamandı, insan dəyişməyib" ifadəsini tez-tez eşitsək də, çevrəmizdə baş verənləri izlədikcə ürəyimizdə "kaş, bir az da təfəkkürümüz dəyişəydi, yanaşmamız dəyişəydi",-deyirik. Niyə? Ona görə ki, göz görə-görə XXI əsrdə övladının məktəb yaşında ərə verən nə qədər "oxutmuram, əl çəkin" deyənlər var. Hələ 19-cu əsrdə Mahmud əfəndi yazırdı:

***Olmasa validənin tərbiyəsi,***
***Edəməz tərbiyə ol bircə kəsi...***

Elə yeri gəlmişkən, bu gün dövlətin bütün qurumları, o cümlədən daxili işlər orqanları tərəfindən erkən nikaha "yox" deyirik mövzusunda mütəmadi tədbirlər keçirilir. Gələcəyimizi düşünərək atılan bu addımları xalq dəstəkləyir və təqdir edir.

Zuidən sonra bu gözəl ənənəni böyük mesenat Hacı Zeynalabdin Tağıyev davam etdirdi. Onun təşəbbüsü ilə Bakıda, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi təşkil olundu.

Və qayıdaq yazının əvvəlində təqdim etdiyimiz şeirə. Həm də burda bir paralelləşmə, dövrləşmə aparaq. Bütün müqayisələr qüsurludur, amma Zuinin həmin şeirindəki yanğı dolu misralar Mirzə Ələkbər Sabirin məşhur şeirini xatırlatsa da, ondan (1862-1911) bəlkə də 40-50 il əvvəl yazılıb. Sabir isə belə deyirdi:

***Dindirir əsr bizi, dinməyiriz,***
***Açılan toplara diksinməyiriz.***
***Əcnəbi seyrə balonlarla çıxır,***
***Biz hələ aftomobil minməyiriz...***

Əsl maarifçilik də elə budur. Səndən kimsə görsün, götürsün və gələcək nəsilləri qəflət yuxusundan oyandırsın.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# ELAN

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Növbətçi Hissələri İdarəetmə Xidmətinin "102" Xidməti-Zəng Mərkəzi və Respublikanın "ASAN xidmət" Mərkəzləri üzrə vakant olan kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək qabiliyyətinə malik, xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

"102" Xidməti-Zəng Mərkəzində iş rejimi gecə və gündüz növbəlilik əsasında təşkil olunur.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə ilkin olaraq "102" Xidməti-Zəng Mərkəzi üzrə 750 manat, "ASAN xidmət" Mərkəzləri üzrə 500 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2020-ci ilin mart ayının 1-dən başlayaraq Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları: (012) 590-93-64 şəhər; 13-64 daxili.**

***Daxili İşlər Nazirliyi***

# OĞURLANMIŞ TALE...

Sabunçu Rayon Polis İdarəsinin təşkilatçılığı ilə rayonun 252 nömrəli məktəb-liseyində "Narkomaniya-bəşəriyyətin bəlası", "Dini radikalizmlə mübarizə" və "Erkən nikahın fəsadları" mövzularında şagirdlərlə növbəti maarifləndirici görüş keçirilib. Tədbirdə Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsinin nümayəndələri, Bakı şəhər Narkoloji Dispanserin həkim-narkoloqu iştirak ediblər.

Məktəbin direktoru Xədicə Eminova tədbiri açıq elan edərək rayon rəhbərliyi və Polis İdarəsi tərəfindən narkomaniya ilə mübarizəyə həsr olunmuş tədbirlərdən, görülən işlərdən danışıb.

Sonra narkomaniyanın, narkotik vasitələrin və onların prekursorlarının insan həyatına vurduğu zərərdən bəhs edən videoçarx nümayiş olunub.

"Videoçarxda narkomaniyadan əziyyət çəkənlərin, bu bəlaya düçar olanların gələcəyə ümidinin olmamasının öz dillərindən eşitmək, əslində, daha ağrılıdır. Onların peşmançılığı başqaları üçün də ibrət olmalıdır. Narkomaniya gənclərin oğurlanmış taleyidir və sözün bitdiyi yerdir...",- deyən **Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Eldar İlyasov** əvvəli həzz və əyləncələrlə başlayan, sonu faciə ilə bitən narkomaniyayla mübarizə tədbirlərinin təkcə paytaxtımızda deyil, yerlərdə də uğurla aparıldığını bildirib, bu sahədə əldə olunan nailiyyətləri sadalayıb. O, "ağ ölüm"lə mübarizədə valideynlərin də fəal olmalarının vacibliyini diqqətə çatdırıb.

Görüşdə həmçinin, dini radikalizm və erkən nikahların da cəmiyyətdə doğurduğu sosial problemlərdən, fizioloji fəsadlarından bəhs edilib.

***Teymur Əlizadə,***
***polis kapitanı***

**Ulu öndər Heydər Əliyev deyirdi ki, bizim gələcəyimiz gənclərə məxsusdur. Biz bu gün yaşayırıq. Bu gün dövləti, milləti idarə edirik, amma sabahı düşünməliyik. Gələcək üçün fiziki, mənəvi və əqli cəhətdən sağlam gənclər hazırlamalıyıq. İdman gəncləri narkotiklərdən, spirtli içkilərdən istifadə etməkdən çəkindirəcəkdir.**



Dünyada idman ölkəsi kimi tanınan Vətənimizin hələ sovet dönəmində idmançılarının əldə etdiyi uğurlar beynəlxalq aləmdə böyük əks-səda doğurmuşdu.

Müstəqilliyimizin ilk illərində idmanımız da bütün sahələr kimi çətin günlər yaşadı. Adlı-sanlı idmançılarımız əlinə silah götürüb şəlandırır və himnimizi səsləndirirlər.

DİN-in İdman Cəmiyyətinin qapıları polis əməkdaşları və onların ailə üzvlərinin üzünə hər zaman açıqdır. Məhz buna görə də bu idman cəmiyyəti polis əməkdaşları ilə bərabər yeniyetmə və gənclərin, həmçinin bütün idman həvəskarlarının sevimli məkanına çevrilib.

# GƏNCLİK GÜCLÜ OLANDA...







Vətənin müdafiəsinə qalxdı. Eləcə daxili işlər orqanlarının əməkdaşlarının da adlarının qızıl hərflərlə həkk olunduğu idman tariximizi tarixin arxivinə atılmaqdan ulu öndərin yenidən ali hakimiyyətə qayıdışı xilas etdi. İdman ötən müddət ərzində həm ümummilli hərəkata, həm də gənclərin taleyinə çevrildi. Paytaxtımızda olduğu kimi, bölgələrdə də yeni idman kompleksləri tikilib-istifadəyə verildi, müxtəlif idman növlərində çempionlarımızın sırası genişləndi.

Yeri gəlmişkən, idmançı gənclərin yetişməsində DİN İdman Cəmiyyətinin də öz yeri var. Cəmiyyət dünən olduğu kimi, bu gün də idmanın inkişafına böyük töhfələr verir, əməkdaşların fiziki hazırlığında müstəsna rol oynayır. Həmkarlarımızın idman hazırlığının yüksəldilməsi, fiziki və psixoloji gərginliklə bağlı dözümlüyünün artırılması məqsədilə bədən tərbiyəsinin və idmanın inkişafı üzrə aparılan işlər bütövlükdə cinayətkarlığa qarşı mübarizənin, ictimai asayişin qorunmasının peşəkarlıqla həyata keçirilməsinə öz müsbət təsirini göstərir.

İdman Cəmiyyətinin yetirmələri-dünya və Avropa çempionları Radik Hüseynov, Eldəniz Əzizli, Ramal Aslanov, Əli Rəhimzadə, Elnur Həmidov, Məhəmməd İmanov, Aydın Ağabəyov və bir çoxları bu gün də Azərbaycanın bayrağını böyük arenalarda dalğalandırır.

Hər il martın 5-i ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunsa da, ümumiyyətlə, mart ayı gələndə "Odlar yurdu"nun hər bir bucağında bayram əhval-ruhiyyəsi duyulur.

Bu ellik bayram, idman günü münasibətilə DİN İdman Cəmiyyətinin rəhbərliyini, bütün idmançılarımızı təbrik edir, onlara uğurlar arzulayırıq. İdmanı həyat tərzinə çevirən, günə sağlam ruhla başlayan hər kəs çevrəsindəkilərə sevinc bəxş edirsə, xoş ovqat yaradırsa, deməli, o üzləşdiyi hər çətinliyə rəğmən dünyanın xoşbəxtidir.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# NƏCİB ADDIM, GÖZƏL TƏŞƏBBÜS

**"Allah sizdən razı olsun, ay bala",- deyib çoxdan tanıyırmış kimi əlini çiynimə qoydu. Ağsaqqalın gözlərindən sanki ətrafa nur səpələndi. "Bu gün bu kəndin camaatı sizlərin xeyirxah əməlindən danışır, dua edirlər. Kənddəki şəhid məzarlarının abadlaşdırılması hər kəsin ürəyincədir. Bu addımı polisin atması isə bəzi ağzıgöyçəklərə əməlli dərs oldu. İndi şəhidlərimiz Arzu Əliyevin də, Həsən Həsənovun da ruhu şaddır"...**

Qocanın dediklərinə bir daha şahid olmaq üçün soraqlaşıb kənd qəbristanlığını tapdım və burda əvvəllər hansı mənzərənin olması gözlərimdə canlandı. Onun dediyi kimi, kol basmış, qəbirlərin üstünü mamır örtmüş məzarlıqdan əsər əlamət yox idi. Səliqə-sahman da öz yerində. Şəhid qəbirlərinin üstü götürülmüş, dəmir məhəccərləri yenilənmişdi. Torpaqlarımız uğrunda canından keçənlərin xatirəsini əziz tutmaqla Azərbaycan Polisi çoxlarına örnək ola bilmişdi.



Kənddə danışılanları, məsələyə insanların böyük rəğbət bəslədiklərini **Oğuz RPŞ-nin rəisi, polis polkovniki Vüqar Əliyevə** deyəndə onun: "Şəhid olmaq hər kəsin alın yazısı deyil, bu yalnız seçilmişlərə nəsib olur" fikrindən sonra əlavə sözə ehtiyac qalmadığını görüb şəhid oğulların doğulduğu ocaqlara baş çəkmək, doğmaları, əzizləri ilə görüşmək istəyimə sevinən, qabağa düşüb bələdçilik edənlər də həmkarlarımız oldu.

Qulaqları doğma səs eşitmək üçün darıxan, iri bir darvazanın yanında ayaq saxlayıb ev sahibini harayladım. Mənə elə gəldi ki, bu səsdən sonra darvazanın o üzündə nə vardısa, hamısı sevindi, elə Həsənin ruhu da.

Bir xeyli keçəndən sonra qapıya çıxan xanım məni görəndə "bura Həsənin ata ocağıdır, amma özü yoxdur",-deyib sözünün davamını gətirə bilmədi. Bir neçə dəqiqədən sonra dilləndi: "Sağ olsun, polis qardaşlar. Həsənimizin ruhunu sevindirdilər. Onun qəbrinin üstünü götürdülər. Həsənin doğum və anım günündə də bizi unutmurlar. Deməli olar ki, kənd sakinlərinin xeyrində də, şərində də polislərimiz iştirak edirlər".

Gəlişim kənd camaatını da sevindirmişdi. Onlar kəndin qayğılarını, onları narahat edən problemləri işıqlandıran jurnalistləri çox görmüşdülər. Bəlkə də birinci dəfə idi ki, "polisin jurnalisti" ilə həmsöhbət olurdular. Eşidən, bilən, Həsənin, Arzunun adına şəhidlər çevrəmdə idilər.

"Həsənli xatirələri diri və duru yaşadan oxuduğu məktəbdir, müəllimlərdir",- deyəndə razılıqlarını bildirdilər. İlk rastımıza çıxan Eynizar müəllimə oldu. Mənə maraqlı gələn onun Həsənlə bağlı xatirələrini keçmiş zamanda yox, indiki zamanda danışmasıydı. Bu, doğurdan da belə imiş: "Şəhidlər ölməz"...

Bir zamanlar Həsənin parta arxasında oturduğu sinif otağına girəndə Eynizar müəllimə, sanki şagirdinin ətrini ciyərlərinə çəkirmiş kimi dərindən nəfəs aldı. Tələsik də eynəyini gözünə taxdı, göz yaşlarını görməyək deyə...

Yusifi də tanıdıq, Həsənin döyüş yoldaşını. O, Qarabağ müharibəsi əlilidir. Boğazında düyünlənmiş qəhər çox danışmağına imkan vermədi və bircə bunları dedi: "O, ürəyi yuxa, yardımsevər, mərd oğlan idi. Döyüş yoldaşlarını heç vaxt darda qoymazdı. Yaralanmışdım, amma Həsən məni əsir düşməkdən xilas etdi. Bir neçə gün sonra şəhid olduğunu eşitdim. Ömrünün bahar çağında-22 yaşında gözlərini əbədi yumdu Həsənimiz"...

Padar kəndinin sakinləri şəhidlərini unutmur, eləcə onların xatirəsini əziz tutan polisimizi də sevir və rəğbətlə yanaşırlar.

***Mahir Məsimov,***
***polis baş leytenantı***

# ŞƏBƏKƏ ÜZVLƏRİ SAXLANILIB

**Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan daha bir şəbəkənin üzvləri saxlanılıb.** Paytaxtın Nizami rayonunda həyata keçirilən tədbir zamanı əvvəlcə Fizuli Qarayev tutulub. Onun üzərində şəxsi axtarış aparılarkən 4,311 qram heroin aşkar olunub. F.Qarayev ifadəsində heroini Nizami rayonunda yaşayan tanışı Vahib adlı şəxsdən aldığını bildirib. Baş İdarə əməkdaşları tərəfindən həmin şəxs - Füzuli rayon sakini Vahib Novruzov da tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman 23,625 qram heroin aşkar edilib. V.Novruzov isə ifadəsində narkotik vasitələri satmaq məqsədi ilə Gündüz Rəsulovdan aldığını deyib.



Əməliyyat tədbirlərinin davamı olaraq narkotik vasitənin mənbəyinin müəyyən edilməsi istiqamətində keçirilən tədbir zamanı Cəbrayıl rayon sakini, əvvəllər məhkum olunmuş Gündüz Rəsulov da tutulub. Saxlanılan zaman onun üzərindən 250,42 qram heroin və 1,974 qram psixotrop maddə metamfetamin, 1 ədəd elektron tərəzi, yaşadığı evdən isə əlavə olaraq 2 kiloqramdan artıq heroin aşkar edilərək götürülüb.

Araşdırma zamanı G.Rəsulovun sosial şəbəkə hesablarında paylaşdığı məlumatlar əsasında onun cinayət törətməyə meyilli şəxs olduğu da məlum olub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Saxlanılan şəxslərin ətraflarının və onların cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir.

# HƏM ETİBARINI İTİRDİ, HƏM DƏ İŞİNİ

**Nəsimi rayonundakı brend geyim əşyalarının satıldığı mağazalardan birinin müdiriyyəti Rayon Polis İdarəsinə müraciət edərək 2019-cu ilin iyun-avqust ayları ərzində obyektdən ümumi dəyəri 15 min manat olan 30 ədəd geyim əşyasının gizli yolla talandığı barədə məlumat verib.**



Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində geyim əşyalarının mağazanın satış təmsilçisi Çingiz Rəhimov tərəfindən müxtəlif vaxtlarda dəyərindən ucuz qiymətə satıldığı məlum olub. O, əldə etdiyi pulu isə kassaya daxil etməyərək mənimsəyib.

Nəsimi RPİ-nin əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təqdim edilən Ç.Rəhimov ifadəsində mağaza rəhbərliyi ötən yay istirahətdə olan zaman bu üsulla obyektdən oğurluq etdiyini etiraf edib.

Faktla bağlı RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# POLİS MƏKTƏBLİLƏRİ MÜKAFATLANDIRDI



Balakən Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Hənifə kənd orta məktəbində "Narkomaniya ümumbəşəri bəladır" və "Yol hərəkəti qaydalarına riayət edək" mövzularında maarifləndirmə tədbiri keçirilib.

**Balakən RPŞ-in rəisi, polis polkovnik-leytenantı Mehman Əliyev** yeniyetmə və gəncləri zərərli vərdişlərdən uzaqlaşdırılması üçün asudə vaxtlarının səmərəli keçirilməsinin diqqət yetirilməsinin vacibliyini qeyd edib. O, narkomaniya və psixo-trop maddələrin yaratdığı problemlərdən, onun fəsadlarından söz açıb, hüquq mühafizə orqanlarının bu istiqamətdə həyata keçirdiyi qabaqlayıcı profilaktiki tədbirlərdən danışıb.

Qeyd olunub ki, bəla ilə mübarizədə ictimaiyyətin fəallığı də əsas şərtdir və valideyn, məktəb, polis həmrəyliyi çox vacibdir.

Sonra RPŞ-nin Dövlət Yol Polisi Bölməsinin rəisi, polis mayoru Babək Dadaşov yol hərəkəti qaydaları mövzusunda çıxış edərək azyaşlıların iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində belə maarifləndirici və profilaktiki tədbirlərin önəmini xüsusi vurğulayıb, eləcə də ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanmasının vacibliyini önə çəkib.

Sözügedən mövzularla bağlı keçirilən inşa müsabiqəsinin qaliblərinə RPŞ rəhbərliyinin hədiyyələri təqdim edilib.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# TORPAQDA İZİ QALDI



**Ağdərə Rayon Polis Şöbəsinin əməkdaşı Zeynalov Tahir Bahadur oğlu 1963-cü ildə Kərkicahanda doğulub.**

Murmansk vilayətində hərbi xidmət keçib. 1988-ci ildən Kərkicahanın müdafiəsinə qoşulub. Kərkicahan Polis Bölməsi yaradıldıqdan sonra işə qəbul olunub. Qardaşı Osmanın itkin düşməsi Tahirdə düşmənə nifrət hissini daha da artırıb. 1992-ci ilin mayın 8-də qayınları-Natiq və Namiqlə birlikdə Şuşa uğrunda gedən döyüşlərə qatılıb. Natiq həlak olub, Namiq isə itkin düşüb.

Şuşanın işğalından sonra Ağdam, Ağdərədə vuruşub. 1992-ci il noyabrın 8-i onun son döyüşü olub. Şəhid olarkən Azərbaycan İqtisad İnstitutunun IV kurs tələbəsi idi.

Məzarı Ağdam rayonundakı Şəhidlər xiyabanındadır.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ, NAZİRLİYİN MÜVAFİQ QURUMLARINDA VAKANT OLAN SIRAVİ VƏ KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər **mia.gov.az./?/az/content/29996/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

***Daxili İşlər Nazirliyi***

# ƏMƏKDAŞIMIZ RƏQİB TANIMAYIB



Bu günlərdə Azərbaycan Juboksing-Citsu Federasiyası tərəfindən Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş Avrasiya çempionatı keçirilib.

Çempionatda digər idmançılarla yanaşı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşı, polis serjantı Fərid Əhmədov da qüvvəsini sınayıb.

Turnirə inamla start verən əməkdaşımız tatamidə rəqib tanımayıb. O, çıxış etdiyi 75 kiloqram çəki dərəcəsində qəfəsdə baş tutan döyüşdə ilk olaraq rusiyalı idmançını üstələyib. İkinci dəfə sambo üzrə tatamiyə dəvət olunan pəhləvanımız bu döyüşdə həmyerlimizə qalib gəlib. Finalda idmanın qrepling növü üzrə rəqibinə heç bir şans verməyən Fərid çempion adını qazanıb.

Gündoğan ölkələrin nümayəndələrini üstələyən paqondaşımız qalibiyyətin heç də asan olmadığını, yarışqabağı keçirilən təlim-məşq toplanışlarının əhəmiyyətini vurğulayıb, DİN rəhbərliyi tərəfindən polis idmançılarımıza yaradılan şəraitdən razılığını ifadə edib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# CÜDOÇULARIMIZ USTALIQ GÖSTƏRDİLƏR



**Bu yaxınlarda Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Kompleksində usta cüdoçular arasında Azərbaycan çempionatı keçirilib. Yarışda müxtəlif çəki dərəcələri üzrə 78 veteran idmançı medallar uğrunda mübarizə aparıb.**

DİN İdman Cəmiyyətinin inspektoru, polis kapitanı Elşən İbişov (90 kiloqramadək) və Əlahiddə Çevik Polis Alayının əməkdaşı, polis baş serjantı Azər Fətullayev (81 kiloqram) qarşılaşdıqları bütün görüşlərdə rəqiblərini məğlub edərək çempion adını qazanıblar.

Baş mükafata sahib olan hər iki idmançımız cüdo üzrə Avropa çempionatında iştirak etmək hüququ qazanıb.

Çempionatda ƏÇPA-nın daha bir əməkdaşı, polis serjantı Yusif Bayramov finaladək irəliləyib və bürünc medala sahib olub.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

Nərimanov RPİ əməkdaşlarının əldə olunmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər məhkum olunmuş İ.Bağırovdan nömrəsi silinmiş "Makarov" markalı tapança, 8 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülmüşdür.

*****

Fevralın 28-də Binəqədi rayonunun 28 May qəsəbəsinin ərazisində yerləşən oyun zalında şəxsiyyəti məlum olmayan 3 nəfər qəsəbə sakini C.Salmanova məxsus 70 manat pul və 35 manat dəyərində mobil telefonunu soyğunçuluq yolu ilə almışlar.

Binəqədi RPİ 40-cı PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən həmyerliləri S.Zərbəliyev, onun qardaşı və Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş Z.Şahverdiyev saxlanılmışlar.

*****

Fevralın 29-da Nəsimi rayonu A.Mustafayev küçəsində yerləşən kafedə orada xidmətçi işləyən Bakı şəhər sakini A.Nəsirova paytaxt sakini R.İsmayılova məxsus içərisində 4500 manat olan pul kisəsini və 2 ədəd mobil telefonu soyğunçuluq yolu ilə aparmışdır.

Nəsimi RPİ 19-cu PŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində A.Nəsirova saxlanılmışdır.

*****

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 29-da Bakı Yük Limanının ərazisində "Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus 360 metr rabitə kabelini kəsərək oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuşlar – R.Səmədov və N.Əhmədov saxlanılmışdır.

*****

Goranboy RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində fevralın 28-də rayon ərazisindəki mağazaların birindən 2960 manat dəyərində lotoreya biletini oğurlamaqda şübhəli bilinən Şəmkir rayon sakini A.Cəfərov saxlanılmışdır.

*****

Sabirabad RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Qalaqayın kənd sakini, əvvəllər məhkum olunmuş P.Abasovun evinin həyətindən 730 qram marixuana aşkar edilərək götürülmüşdür.

*****

Nərimanov RPİ əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində də narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Salyan rayon sakini E.Qasımov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 850 qram heroin, 555 qram marixuana, 800 ədəd metadon həbi və elektron tərəzi aşkar edilərək götürülmüşdür.

*Natiq Cavadov*

# Fevral ayının 26-dan martın 3-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 169 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 93 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 225, o cümlədən borclu şəxs qismində axtarışda olan 125 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 15 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 21 nəfər ölmüş, 18 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 86 fakt müəyyən edilmişdir.

# İncilər

✦Xarakteri yalnız xarakter yarada bilər.

**K.D.Uşinski**

✦Bədbəxt o adama deyərlər ki, başqasına yaxşılıq etməyi bacardığı halda etməsin.

**A.Bakıxanov**

✦Təmiz vicdan böhtandan qorxmur.

**F. Volter**

✦Ağıllıya məsləhət verərsən təşəkkür edər, axmağa məsləhət verərsən gülməyi gələr.

**Başqırd atalar sözü**

✦Adam olmaq o deməkdir ki, bütün hərəkətlərinə cavabdeh olduğunu hiss edəsən.

**A.S.Ekzüperi**

✦El üçün çalışan həmişə yaşar.

**H.Zərdabi**

✦Kişidən yadigar övlad deyil, xeyirli əməl və yaxşı ad qalar.

**Makedoniyalı İskəndər**

✦Öz borcunu dərk edib, onu yerinə yetirməmək qorxaqlıqdır.

**Konfutsi**

✦Sadəlik, xeyirxahlıq və həqiqət olmayan yerdə dahilik yoxdur.

**L.N.Tolstoy**

✦Ən yaxşı miras ədəbdir, ən yaxşı yoldaş əxlaqdır.

**Ərəb atalar sözü**

✦Səbr hər yerdə dərmandır, amma səbrə dərman yoxdur.

**Ərəb atalar sözü**

✦Xeyirxah tənha qalmaz, həmişə qonşusu olar.

**Yapon atalar sözü**

# BARMAQ İZLƏRİNDƏKİ "ŞƏXSİYYƏT VƏSİQƏSİ"



**"Bəli, biz onun barmaq uclarını da (yenidən) düzəltməyə qadirik". Qurani-Kərimin "Qiyamət" surəsindəki bu ayədə barmaq uclarının vurğulanması son dərəcə hikmətamizdir.** Çünki bütün insanların barmaq izləri tamamilə bənzərsiz, təkrarsız və özünəməxsusdur. Hətta eyni DNT düzülüşünə malik olan və eyni yumurtadan yaranan əkizlər də fərqli barmaq izlərinə sahibdir.

Barmaq izi doğuşdan əvvəl dölün üzərində son şəklini alır və barmaq onun dəri strukturunu deformasiyaya uğradaraq tamamilə sıradan çıxaran yara almasa, bu izlər ömür boyu sabit qalır. Buna görə də insanlar barmaq izlərini öyrənən elmdən (daktiloskopiya) hansısa bir şəxsi müəyyənləşdirmək məqsədilə istifadə edirlər.

Barmaq izlərinin özünəməxsusluğu XIX əsrin axırlarında kəşf edilmişdir.

Bu kəşfə qədər insanlar barmaq izlərini heç bir xüsusiyyəti və mənası olmayan cizgilər kimi qəbul edirdilər. Quranda isə o dövrdə heç kimin ağlına gəlməyən barmaq izlərindən bəhs olunur və bu izlərin ancaq zamanımızda qeyd edilən əhəmiyyətinə diqqət yetirilir.

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 19:30
Qiyməti 40 qəpik